6 avqust 2017-ci il, bazar XALQ QƏZETİ

❒ ***Əslində, bu yazı xeyli əvvəl – hələ yazda yazılmalı idi. Belə ki, aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Yevlaxda qeyri-neft ixracatçılarının respublika müşavirəsi keçirilirdi. Həmin qəbildən olan tədbirlərə ölkədə hamı böyük maraq və diqqətlə yanaşsa da, orada söylənilənləri biz jurnalistlər, xüsusən bölgə müxbirləri daha diqqətlə izləyirik. Çünki istənilən regionda keçirilmiş sosial-iqtisadi və ya aqrar istiqamətli tədbirlərdə mənim işlədiyim bölgənin rayon və şəhərləri barədə də nələrinsə söylənilməsi tamamilə gözləniləndir. Yevlaxda da belə oldu.***





# Mingəçevirdə ixrac üçün böyük potensial var

Regionlarda əhalinin məşğulluğunun təmin edilməsi və iqtisadiyyatın daha da gücləndirilməsi məqsədilə atılan addımlardan danışan dövlət başçımız dedi ki, indi Azərbaycanda bir neçə böyük sənaye müəssisəsi yaradılır: "Mən Sumqayıt Kimya Sənaye Parkındakı zavodları xüsusi qeyd etmək istəyirəm. Orada biznes üçün, kiçik və orta sahibkarlıq, ixrac üçün çox böyük potensial var. Sumqayıt polimer və gübrə zavodları, Mingəçevir Sənaye Parkı. Bu il birinci zavodlar istifadəyə veriləcəkdir".

Yəni hələ o zaman qərara gəlmişdim ki, dövlət başçımızın nitqində adıçəkilən Mingəçevir Sənaye Parkının yaradılması istiqamətində həyata keçirilən tədbirlər haqqında nə isə yazım. Amma orada elə sürətli iş gedir ki, kiməsə yaxınlaşıb sual verməyi, vaxtını almağı məqsədəuyğun saymadım. Hətta şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov da bizimlə söhbətində bu məsələyə ötəri toxunmağı vacib bildi: "Ölkə rəhbərinin tapşırığına əsasən Mingəçevir şəhərində inşa edilən sənaye parkında və "Asan Həyat"ın inzibati binasında tikinti işləri sürətlə davam edir". Amma həmsöhbətimdən şəhərin sosial həyatı, tikinti və abadlıq işləri, sakinlərə göstərilən xidmətin səviyyəsi barədə kifayət qədər fakt eşitdim.



Niyazi müəllim qeyd etdi ki, ölkəmizdə regionların inkişafına göstərilən dövlət qayğısı şəhərimizin timsalında öz müsbət nəticələrini göstərməkdə davam edir. Məsələn, ilin ötən yarı ayında şəhərin əsas iqtisadi sahələrində 43,6 faiz artım müşahidə olunub. Keçən ilin eyni dövrü ilə müqayisədə sənaye müəssisələrində məhsul istehsalı 74,6 faiz artaraq, 156 milyon manat təşkil edib. Əsas kapitala 13 milyon manat yönəldilib, tikinti-quraşdırma işlərinə 12,8 milyon manat xərclənib, 2,3 milyon manatlıq nəqliyyat, 645,7 min manatlıq rabitə, 171,9 milyon manatlıq ticarət və 472,4 min manatlıq digər xidmətlər göstərilib. Etiraf edim ki, kifayət qədər uğurlu göstəricilərdir.

Həmsöhbətim dedi ki, ötən il olduğu kimi, bu il də regionların inkişafı ilə bağlı Dövlət Proqramının Mingəçevirə aid bəndləri uğurla icra olunur və nəticədə iqtisadiyyatın müxtəlif sahələrində 1080 yeni iş yeri açılıb. Son illər aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri bu ilin əvvəlindən indiyədək davam edir. Şəhərin məhəllədaxili ərazilərinə, yol və səkilərə 30 min kvadratmetr asfalt örtük salınıb. Park və xiyabanlara, səkilərə 6,2 min kvadratmetr dekorativ tamet döşənib, 1,2 min kvadratmetr aqlay quraşdırılıb. İsmət Qayıbov küçəsi 6, 20 Yanvar küçəsi 8, Mehdi Hüseyn küçəsi 11 saylı binaların dam örtükləri əsaslı təmir olunub, 3,5 min kvadratmetr metal kirəmit vurulub.



Təbii ki, Mingəçevir haqqında danışarkən, ilk növbədə enerji müəssisələri yada düşür. Ona görə də həmsöhbətim qeyd etdi ki, şəhər sənayesinin əsas inkişaf istiqaməti olan enerji istehsalı müəssisələri --Azərbaycan İstilik Elektrik Stansiyası və Mingəçevir SES silsiləsi MMC-lər ilin əvvəlindən bəri avadanlıqların etibarlı, dayanıqlı və qənaətli iş rejimini təmin edib, istehsal tapşırıqlarını uğurla yerinə yetiriblər. Nəticədə enerji istehsalı 34,3 faiz artaraq, 4 milyard 31 milyon kilovatsaata çatdırılıb. Digər sənaye müəssisələri – "Azneftemaş", "Mingəçevir İzolit", "Akkord Mingəçevir maşınqayırma zavodu"ASC-lər mövcud imkanları daxilində fəaliyyətlərini təmin ediblər.



Bugünkü Azərbaycan həqiqətlərini özündə əks etdirən daha bir mühüm istiqamət barədə də məlumat aldıq. Şəhər rəhbəri qeyd etdi ki, cənab Prezidentin rayon, şəhər rəhbərlikləri qarşısında qoyduğu əsas vəzifələrdən biri də əhalinin sosial problemlərinin vaxtında və yüksək səviyyədə həll edilməsidir. Həmin məsələ ilə bağlı aidiyyatı sahələrin fəaliyyəti bu il də daim diqqət mərkəzində saxlanılır. Şəhər üzrə 18 min 75 nəfər təqaüd alan şəxs var. Onlardan 10 min 720 nəfəri yaşa görə, 5 min 792 nəfəri əlilliyə görə, 1563 nəfəri isə ailə başçısını itirdiyinə görə təqaüd alır. Hesabat dövründə 646 ailəyə ünvanlı sosial yardım ödənilib.

Xidmət sahələri də öz fəaliyyətlərini zamanın tələbləri səviyyəsində qurmağa çalışır və bu sahədə özünəməxsus uğurlar qazanır. Məsələn, telekommunikasiya qovşağının və poçt filialının fəaliyyətləri qənaətbəxşdir. Poçt filialında müasir xidmətlərin təşkili və genişləndirilməsi sahəsində işlər davam etdirilib, enerji, qaz və su pullarının yığılması lazımi səviyyədə təşkil olunub. Nəticədə müəssisə 170 min manat plana qarşı 210 min manatlıq xidmət göstərib və tapşırıq 123 faiz yerinə yetirilib.

Şəhər elektrik şəbəkəsi tərəfindən müxtəlif ünvanlarda 13 min 600 metr SİP kabel xətti, 7300 metr naqil çəkilib. Müxtəlif xətlərdə 71 ədəd yeni dəmir-beton dayaqlar basdırılıb və digər zəruri texniki xidmət işləri görülüb. Əhalinin istehlak etdiyi elektrik enerjisinin haqqı tam ödənilib. Su - kanal idarəsi tərəfindən köhnə su şəbəkəsində baş vermiş 1900 qəza aradan qaldırılaraq müxtəlif diametrli 282 metr su xətti, 55 ədəd ventil və 1 ədəd siyirtmə dəyişdirilib, 3000 metrosu xətti, 21 ədəd siyirtmə təmir olunub. Şəhərin Sağsahil yaşayış massivində 39 yaşayış binasında mənzillərə yeni şəbəkədən su verilməsi təmin edilib.

Qaz istismar xidməti tərəfindən müxtəlif diametrli 367 metr yeraltı, 1166 metr yerüstü, ümumilikdə isə 1532 metr qaz xətti çəkilərək 11 ədəd yeni qaztənzimləyici məntəqə quraşdırılıb. İstismar müddəti bitmiş 861 ədəd qaz sayğacı yenilənib. İlin əvvəlindən bəri əhali sektorunun ödənişi 140,3 faiz təmin edilib.



Sevindirici haldır ki, böyük şairimiz Səməd Vurğunun "Çinarlar sahildə qatar-qatardır" – deyə vəsf etdiyi Mingəçevirdə yaşıllaşdırma və abadlıq işləri bu gün də davam etdirilir. Məsələn, öyrəndik ki, yaşıllaşdırma və sanitar təmizlik idarəsi tərəfindən ilin əvvəlindən bəri 3833 ədəd müxtəlif növ ağac tingləri, 1500 ədəd həmişəyaşıl kol əkilib, parklarda 370 metr suvarma xətləri çəkilib. Mənzil-kommunal təsərrüfatı istehsalat birliyi tərəfindən şəhərin sel sularından mühafizə kanalının 4800 metrlik hissəsi, Samux küçəsində köməkçi sel-su kanalının 1250 metrlik hissəsi təmizlənib, şəhərin müxtəlif küçələrində 179 metr plastik borulardan yeraltı yağış sularını ötürən xətlər çəkilib.

Başqa bir fakta nəzər salaq. Məlumdur ki, bu gün Azərbaycan dövlətinin ən çox diqqət mərkəzində saxladığı məsələlərdən biri də gənclərlə aparılan işin təkmilləşdirilməsi və respublikamızın idman ölkəsi kimi tanınmasına xidmət edən layihələrin reallaşdırılmasıdır. Mingəçevirdə bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsi də ürəkaçandır. Belə ki, gənclər arasında idmanın geniş yayılması, yarışların keçirilməsi sahəsində bir sıra işlər görülüb, nailiyyətlər əldə olunub. Bu il şəhər gənclər və idman idarəsinin nəzdindəki idman məktəblərinin yetirmələri, ümumilikdə müxtəlif idman növləri üzrə 10 qızıl, 7 gümüş, 9 bürünc medal qazanıblar.



Həmsöhbətim sonda dedi ki, şəhərimizdə iqtisadiyyatın dirçəlməsi, abadlıq və quruculuq işlərinin miqyasının genişləndirilməsi, kommunal problemlərin ardıcıl şəkildə həll olunması və ümumilikdə bütün sahələrdə aparılan işlər uğurla davam edir: "Ölkə başçısı Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qarşıya bir sıra ciddi, həllivacib vəzifələr də qoydu. Bunlar yeni iş yerlərinin açılması, özünü məşğulluq proqramının genişləndirilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə imkan yaradılması, xarici və yerli sərmayənin cəlb edilməsi və digər tədbirlərin görülməsi nəticəsində cari ilin sonuna qədər müsbət dinamikanın saxlanılmasıdır. Hesab edirəm ki, mingəçevirlilərin nümayiş etdirdiyi əzmkarlıq ilin uğurla yekunlaşmasına zəmin yaradacaq və 2017-ci il şəhərimiz üçün yeni iş yerlərinin açılması və yüksək nailiyyətlər ili kimi yadda qalacaq".

Və nəhayət. Bu yazını Türkiyənin Gəncədəki baş konsulu Orhan İşıkın Mingəçevirdə səfərdə olarkən dediyi fikirlərlə tamamlamaq istəyirəm. Baş konsul şəhər icra hakimiyyətinin başçısı ilə görüşdə dedi ki, şəhərin yaşıllığından, sevgilərindən çox məmnun oldum: "Azərbaycan qədim bir diyardır. Mingəçevirdə isə gözəl şəhər havası var. Çox müasir infrastruktura malik olan bu şəhər, doğrudan da, bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Əslində, Azərbaycanda 3 böyük sənaye mərkəzi müəyyən olunub. Bakı, Sumqayıt, Gəncə. Biz Mingəçeviri də bu siyahıya əlavə etməliyik".

Bəli, Mingəçevir bu gün, sözün həqiqi mənasında, Azərbaycan həyatının bütün sahələrindəki inkişafın əks-sədasını yaradan şəhərə çevrilib. Yaradan əlləri isə yazan əllər həmişə alqışlayıb.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***